**Sərhədlərin bağlı qalmasının**
**təhsil, səhiyyə və idman sahələrinə təsiri**

Ölkə sərhədlərinin uzun müddət bağlı qalması dövlətin bütün sahələrinə yalnız və yalnız neqativ təsir göstərə bilər, o cümlədən təhsil, səhiyyə və idman sahələrinə.

Son illərin ən böyük problemi xaricdə təhsil alan tələbələrin ölkədən çıxa bilməməsi və tələbə vizası almaqda böyük çətinliklər yaşamaqları ilə bağlıdır. Belə ki təhsil aldıqları ölkədə tələbələr 3-6 aydan bir tələbə vizalarını yeniləmək üçün sərhədi keçməlidirlər. Quru sərhədlərin bağlı, aviabiletlərin baha olması sərhədkeçməni qeyri-mümkün edir və ali savad almaq yolunda artıq xeyli vəsait, resurs sərf etmiş tələbənin təhsilini uğurla başa vurmasının qarşısını alır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-2018-ci illərdə xarici universitetlərdə dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı 1800 nəfər, 2022-2023-cü ildə 1004 nəfər olub. Yəni sərhədlər bağlanandan sonra təkcə dövlət xətti ilə xaricdə təhsil alan tələbələrin sayının təxminən 2 dəfə azaldığını görürük. Öz vəsaiti hesabına xarici universitetlərdə övladlarına keyfiyyətli təhsil vermək imkanı da sərhədlərin bağlanması ilə valideynlərin əlindən alınıb. Təhsil naziri Emin Əmrullayev bu faktları xalqa pozitiv tendensiya kimi sırımağa çalışır: "Azərbaycanda ali təhsil alan vətəndaşların sayı son 5 ildə 33.8% artıb". Azərbaycanda həm orta, həm də ali təhsilin keyfiyyətinin son 15 ildə kəskin dərəcədə zəiflədiyini, təhsil sistemində korrupsiya faktlarının dəfələrlə artmasını nəzərə alanda ölkə üzrə əhalinin bilik, savad baxımından deqradasiyaya uğradığının şahidi oluruq. Ən dəhşətlisi də və bir daha vurğulanmalı olan məqam odur ki, bu faktları hakimiyyət nümayəndələri əhaliyə böyük uğur, nailiyyət kimi təqdim edirlər.

Bundan əlavə aspirantların, alimlərin beynəlxalq elmi konfranslarda, simpoziumlarda iştirakı da son illərdə xeyli azalıb. Məktəblilərin, xüsusilə də yuxarı sinif şagirdlərinin isə akademik fənlər üzrə beynəlxalq olimpiyadalarda iştirakı yox səviyyəsinə enib. Belə ki şagirdlərin olimpiadalarda iştirakı dövlət tərəfindən maliyyələşdirilmədiyinə görə məktəblinin özünün və valideynin minimum 4000 manatdan başlayan yol, oteldə qalma və digər xərcləri bütövlükdə valideynlərin üzərinə düşür. Quru sərhədlərin bağlı, aviabilətlərin isə çox baha olması şagirdlərin olimpiadalarda iştirakını mümkünsüz edir. Bu isə qabiliyyətli uşaqların inkişafının qarşısının alınması, cücərməkdə olan intellektual resursun məhvi deməkdir.

Onu da əlavə edək ki, ölkə əhalisi son 35 ili müharibə şəraitində yaşadığı üçün çox ailələrin natamam olduğunu, yəni anaların çox vaxt övladlarını tək böyütməyə məhkum olduqlarını, bununla bərabər kütləvi işsizliyi nəzərə alanda dövlət dəstəyi olmadan uşaqlara nəinki keyfiyyətli, hətta kafi səviyyədə orta təhsil də vermək çətinləşib.

Sərhədlərinin bağlı qalmasının idman sahəsində yaratdığı fəsadlar barədə məlumat verməsi üçün Təhsil və Səhiyyə komitəsinin idman üzrə alt Komitə rəhbəri Əli Kərimova sözü verirəm.

Sərhədlərin uzunmüddətli bağlı olması idman sahəsinin və Azərbaycan idmançılarının inkişafına da mənfi təsir göstərir. Gənclər və İdman Nazirliyinin son illərdə Azərbaycan idmançılarının beynəlxalq və Olimpiya yarışlarında qazandıqları uğurlarla bağlı təqdim etdiyi hesabat həqiqəti əks etdirməyən, saxta, şişirdilmiş rəqəmlərlə doludur. Xaricdən peşakar adı ilə gətirib vəzifə sahibi etdirdikləri kadrları isə nəinki idmanın inkişafına xidmət etməyə, hətta doğru-düzgün hesabatlar hazırlamağa belə yaramırlar.

Çünki təqdim etdikləri statistikaya görə Olimpiya idman növləri üzrə il boyu beynəlxalq yarışlarda qazanılan medalların sayı pandemiyaya qədər dönəmdə, yəni 2019-cu ildə 327 (90 qızıl, 96 gümüş, 141 bürünc), 2022-ci ildə 356 (116 qızıl, 101 gümüş, 139 bürünc), 2023-cü ildə 799 (214 qızıl, 208 gümüş, 377 bürünc), 2024-cü ildə isə 827 (246 qızıl, 238 gümüş, 343 bürünc) olmuşdur. Analoqsuz inkişaf buna deyərlər! Sərhədlər bağlı olan dönəmdə qazanılan medalların sayı əvvəlki dövrə nisbətən guya 3 dəfəyə qədər artmışdır. İdman sahəsində dövlət dəstəyinin çox aşağı səviyyədə olduğunu, bu sahənin korrupsiyalaşdığını nəzərə alanda rəqəmlərin həddən artıq şişirdilmiş olduğunu anlamaq çətin deyil. Görəsən, bu cür saxtakarlıqlarla kimə və nəyi sübut etməyə çalışırlar? Məgər dövlətdən dəstək almadan bahalı aviabiletlərlə beynəlxalq yarışlarda çoxmu idmançımız iştirak edə bilər? Sərhədlərin bağlı olması gənc, yetişməkdə olan idmançıların beynəlxalq məşq toplantılarında, məşqçilərin müxtəlif seminarlarda iştirakını da əngəlləyir, öz sahəsi üzrə inkişafının, beynəlxalq standartlara uyğunlaşmalarının qarşını kəskin şəkildə alır. Gənclər və İdman Nazirliyi isə saxta rəqəmləri ilə iddia edir ki, sərhədlərin bağlı qalması idmançılarımızın yalnız xeyrinədir.

Sərhədlərinin bağlı qalmasının səhiyyədə yaratdığı fəsadlar barədə məlumat verməsi üçün Təhsil və Səhiyyə komitəsinin sədr müavini Şahin Şirinova sözü verirəm.

Quru sərhədlərin bağlanması aztəminatlı ailələrin sağlamlıq problemlərinin həllinə də mənfi təsir göstərir. Heç kimə sirr deyil ki, Azərbaycan əhalisinin böyük bir hissəsi sərhədlər açıq olanda İrandan, Gürcüstandan və Türkiyədən təkcə ərzaq məhsulları deyil, həm də nisbətən ucuz, eyni zamanda keyfiyyətli dərman preparatları ala bilirdilər. Bundan əlavə, İranda, Gürcüstanda və Türkiyədə olan tibbi xidmətlər, o cümlədən cərrahi müdaxilə qiymətləri Azərbaycandan dəfələrlə ucuzdur. Bəzi iranlı və türkiyəli cərrahlar nisbətən aşağı qiymətə və bəzən xeyriyyə məqsədi ilə Azərbaycan klinikalarında əməliyyatlar da aparırdılar. Quru sərhədlərin bağlanması ilə Azərbaycan əhalisi bu imkanlardan da məhrum edilib.

Həmçinin quru sərhədlərin bağlanması ölkə daxilində satılan dərman preparatlarının kəskin bahalaşması və keyfiyyətsizləşməsi ilə nəticələnir. Bu isə əhalinin sağlamlıq durumunu daha da ağırlaşdırır. Azərbaycan ürək-damar, onkoloji xəstəliklərin və diabetin ən ağır formalarından əziyyət çəkən xəstələrin sayı ilə dünya reytinqində ön sıralardadır. Bu ölkə daxilində səhiyyənin bərbad vəziyyətdə olmasının göstəricisidir. Qonşu dövlətlərdə ucuz müalicə almaq imkanından məhrum edilmiş bu xəstələr birbaşa ölümə təslim edilmiş sayılırlar. Bunun isə bircə adı var - SOYQIRIMI!

Dünyanın mərkəzində yerləşən Azərbaycan dövlətinin əsassız olaraq bütün qonşu dövlətlərlə sərhədlərinin bağlanması, ölkə əhalisinin maraqlarına zidd olaraq dünyadan sərt təcridi əhalinin tədricən “daş dövrünə” qayıtması deməkdir. Bu isə bütün dünyada nizamlı həyatın alt-üst olmasına səbəb ola bilər.

10.03.2025-ci il
Xatirə Cəbrayılova, Moskva